Azərbaycan.- 2021.- 19 mart. S. 7.

# Milli Məclisdə Vətən müharibəsində iştirak etmiş bir qrup gənc həkimlə və seçicilərlə görüş olub



Martın 18-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Vətən müharibəsində iştirak etmiş bir qrup gənc həkimlə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları Milli Məclisdə salamlayan sədr müavini Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın düşmən işğalından azad edilməsindən söhbət açıb, bu Qələbəni tariximizin ən parlaq səhifəsi kimi səciyyələndirib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərləri barədə danışan sədr müavini bildirib ki, düşmən işğal etdiyi ərazilərdə hər şeyi yerlə yeksan etməklə o yerlərin əsl sahiblərinin izlərini silməyə çalışıb. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra həyata keçirilib. Nə İkinci, nə də Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntı olmayıb.

Ölkəmizdəki uğurlu gənclər siyasətindən və şanlı Ordumuzun qəhrəmanlığından bəhs edən vitse-spiker gənc həkimlərimizin könüllü şəkildə döyüş bölgəsinə getmələrini və fədakarlığını yüksək qiymətləndirib. Adil Əliyev artıq bərpasına başlanılan ərazilərimizin güclü siyasi iradə, diplomatik mübarizə və şəhidlərimizin qanı hesabına başa gəldiyini qeyd edərək şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləklərini ifadə edib.

Sonda Vətən müharibəsində xidmət etmiş həkimlərə Milli Məclisin Gənclər və idman komitəsinin fəxri fərmanları təqdim olunub.

## Milli Məclisin sədr müavini Adil Əliyev seçicilərin növbəti qəbulunu keçirib

Martın 18-də 20 saylı Nərimanov seçki dairəsindən deputat, Milli Məclisin sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev xüsusi karantin rejiminin şərtlərinə uyğun olaraq videokonfrans vasitəsilə seçicilərinin növbəti qəbulunu keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videoqəbul zamanı sədr müavini 2020-ci ilin tariximizdə Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Ordumuzun qazandığı tarixi Qələbə ilə yadda qalacağını, əzəli və əbədi torpaqlarımızın düşmən işğalından azad edilməsinin hər bir azərbaycanlıda qürur doğurduğunu diqqətə çatdırıb.

Görüş zamanı seçicilər Vətən müharibəsinin ölkəmizin tarixində misilsiz yeri olduğunu qeyd ediblər. Qəbulda seçicilərin qaldırdığı müxtəlif kommunal, infrastruktur, sosial, humanitar məsələlər müzakirə edilib, onların bir hissəsi yerindəcə həll olunub.

Bildirilib ki, seçicilərin təhsil, işlə təminat, məişət şəraitinin yaxşılaşdırılması və digər məsələlərlə bağlı müraciətləri isə araşdırılması və zəruri tədbirlər görülməsi üçün aidiyyəti orqanlara göndəriləcək.

Görüşün sonunda seçicilərə xüsusi karantin rejiminin şərtlərinə riayət olunmasının zəruriliyi bir daha xatırladılıb, Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyənləşdirdiyi qaydalara riayət etməyin vacibliyi diqqətə çatdırılıb.